# Şərqşünaslıq İnstitutunun son tədqiqatları

**Vüqar Məmmədov**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, f.ü.f.d.*

AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşları 2020-ci ildə səmərəli elmi fəaliyyət göstərərək, "Şərq ölkələrinin ictimai, iqtisadi, mədəni-tarixi inkişafı və Azərbaycanla əlaqələri" istiqaməti üzrə araşdırmalar aparıb, elmi-tədqiqat planında nəzərdə tutulmuş bütün işləri yerinə yetiriblər.

Elmi-tədqiqat işləri 1 elmi istiqamət, 5 problem çərçivəsində aparılıb. Plan üzrə icra olunan 101 elmi-tədqiqat işindən 50 iş 2020-ci ilin sonunda başa çatdırılıb. Qalan işlərin 2020-cu il üçün nəzərdə tutulan hissəsi yerinə yetirilib və növbəti ildə davam etdirilib.

İlk olaraq, İnstitutda "Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti, Şərq ölkələri ilə Azərbaycanın əlaqələri" problemi çərçivəsində tədqiqat aparılaraq tamamlanmış işlərdən bəhs edək.

Bu problem çərçivəsində "İranın ictimai-siyasi vəziyyəti, İran-Azərbaycan əlaqələri" mövzusu üzrə institutun İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, t.ü.f.d., dos. Vidadi Mustafayev 2018-2020-ci illərdə "İran İslam Respublikası siyasi-ictimai modelinin təbliği mexanizminin əsas xüsusiyyətləri" işini icra edib. Tədqiqatda siyasi-ictimai model anlayışı, İran İslam Respublikasının siyasi-ictimai modelinin əsas komponentləri, modelin xaricdə təbliğinin istiqamətləri, mexanizminin əsas xüsusiyyətləri, həmin sahədə əldə edilmiş nailiyyətlər və qarşıya çıxan problemlər araşdırılıb.

Həmin şöbənin baş elmi işçisi, t.ü.e.d, prof. Solmaz Rüstəmova-Tohidi 2019-2020-ci illərdə "AXC dövründə xarici dövlətlərin Qarabağ məsələsində mövqeyi (İran, Türkiyə, İngiltərə)" mövzusu üzərində çalışıb. S.Rüstəmova-Tohidinin araşdırmalarına görə, Azərbaycanın müstəqil dövlətçilik tarixində Qarabağ məsələsi ilk dəfə dövlət siyasəti səviyyəsində Azərbaycan Xalq Cümhuriyyəti dövründə gündəmə gətirilib və həll olunub. 1917-ci ildə Rusiya imperiyasının süqutundan sonra ölkədə yaranmış xaos və özbaşınalıq şəraitində Cənubi Qafqazdakı yerli erməni milli komitələri, Daşnaksütun partiyasının silahlı qüvvələri və 1915-ci il Türkiyədə erməni əhalisinin deportasiyası zamanı Qafqaza köç etmiş Osmanlı ermənilərinin silahlı-quldur dəstələrinin birgə hərbi əməliyyatları nəticəsində Azərbaycanın Dağlıq Qarabağ və Zəngəzur bölgələrində hakimiyyət, demək olar ki, ermənilərin əlinə keçmişdi. Erməni hərbi dəstələri və yerli erməni əhalisi müsəlman kəndlərinə aramsız hücumlar edir, kütləvi talanlar, qarətlər törədir, nəticədə yerli azərbaycanlı əhali öz torpaqlarını tərk etməyə vadar edilirdi. Bakı daxil olmaqla, Azərbaycanın işğal altında olan torpaqları Qafqaz İslam Ordusu tərəfindən bolşevik-erməni hakimiyyətindən azad edildikdən sonra 28 may 1918-ci ildə Azərbaycanın istiqlalını bəyan etmiş Azərbaycan Milli Şurası və hökuməti həmin dövr bölgədə olan xarici ölkələrin – Osmanlı və daha sonra İngiltərənin hərbi və siyasi qüvvələrinin iştirakı ilə 3 dəfə Dağlıq Qarabağ və Zəngəzurda üsyan etmiş erməni əhalisinə və silahlı qüvvələrinə qalib gəlmiş və onları Azərbaycan dövlətini tanımağa məcbur etmişdir.

Kiçik elmi işçi Nərminə Məcidova 2019-2020-ci illərdə "İran-Pakistan münasibətlərində Bəluc problemi" mövzusunu araşdırıb. Tədqiqat işi İran–Pakistan münasibətlərində Bəlucistan məsələsinin araşdırılmasına həsr olunub. Tədqiqatın əsas istiqamətini Bəlucistan probleminin hər iki müsəlman ölkəsi arasında ilkin yaranma səbəbləri və münasibətlərdəki yeri təşkil edir. Araşdırmada adı çəkilən dövlətlər arasında bəluc probleminin yaranma tarixi, tutduğu yer, problemin həlli yollarının axtarılması üçün baş tutmuş görüşlər, atılan addımlar, o cümlədən, Bəlucistanda baş verən hadisələrin hər iki ölkə münasibətlərinə təsiri geniş tədqiq olunub.

Kiçik elmi işçi Sevinc Məmmədova 2019-2020-ci illərdə "İran-AXC münasibətləri (1918-1920-ci illər)" işi üzərində çalışıb. Tədqiqat işi 1918-ci il 28 may - Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini elan etdikdən 1920-ci il aprel işğalına qədərki olan dövrdə İran-AXC ictimai-siyasi münasibətlərinin araşdırılmasına həsr olunub. Mövzuda XX əsrin əvvəllərində Cənubi Qafqazdakı ictimai-siyasi vəziyyət və bunun İran-AXC münasibətlərinə təsiri tədqiq

olunur. Tədqiqatın əsas mənbə bazasını AXC müstəqil elan ediləndən sonrakı dövrdə baş verən ictimai-siyasi münasibətləri əsasən İran, Azərbaycan və qismən rus, ingilis qaynaqları təşkil edir. Tədqiqatın məqsədi AXC hakimiyyəti dövründə baş verən siyasi proseslərin gedişində İran-AXC siyasi münasibətlərinə aydınlıq gətirməkdən ibarətdir.

Problem çərçivəsində digər mövzu "Osmanlı İmperiyasının tarixi, müasir Türkiyənin siyasi-iqtisadi inkişafı və Azərbaycanla əlaqələri"dir. Bu mövzu çərçivəsində Türkiyə taixi və iqtisadiyyatı şöbəsinin baş elmi işçisi, i.ü.e.d., prof. İnqilab Əlibəyov 2020-ci ildə "XIX-XX əsrin ortalarında Türkiyənin iqtisadi inkişafının əsas istiqamətləri" işini yerinə yetirib. Tədqiqat işində çoxsaylı statistik məlumat və müxtəlif dillərdə mövcud olan zəngin elmi ədəbiyyat əsasında XIX-XX əsrin ortalarında Osmanlı dövlətində və Türkiyə Respublikasının ilk onilliklərində iqtisadi inkişafının əsas dinamikası təhlil edilib, o cümlədən Osmanlı dövlətinin son onilliklərdə Qərbi Avropa ölkələrindən maliyyə asılılığının səbəbləri, Mustafa Kamal Atatürk dövründə Türkiyədə etatizmin (dövlətçiliyin) iqtisadi inkişafın başlıca modeli kimi qəbul olunması və bu siyasətin nəticələri araşdırılıb.

Həmin şöbənin əməkdaşı, t.ü.f.d Namiq Məmmədov – 2019-2020-ci illərdə "Ədalət və İnkişaf Partiyası hakimiyyəti dövründə Türkiyənin sosial-iqtisadi inkişafı və onun nəticələri" mövzusu üzrə işi yerinə yetirib. Ədalət və İnkişaf Partiyasının (AKP) hakimiyyətə gəlməsi 2001-2002-ci illərdə Türkiyədə ölkə tarixinin ən dərin və ağır maliyyə-iqtisadi böhranlarından sonra olduqca gərgin bir siyasi vəziyyətdə baş verib. Tədqiqatda AKP-nin hakimiyyətə gəlməsindən sonra bu sahədə qəbul olunmuş qərarlar, həyata keçirilmiş islahatlar və onların nəticələrindən, o cümlədən mövcud maliyyə-iqtisadi böhranından çıxmaq üçün həyata keçirilmiş digər tədbirlərdən geniş bəhs edilib və onlar təhlil olunub. Qeyd olunan sosial-iqtisadi inkişafı əyani şəkildə nümayiş etdirmək üçün müxtəlif cədvəllər də tərtib edilmiş və ümumiləşdirmələr aparılıb.

Böyük elmi işçi, t.ü.f.d. Yaxşıxanım Nəsirova 2020-ci ildə "Osmanlı arxiv sənədlərinə görə XX əsrin əvvəllərində Cənubi Azərbaycanın Salmas bölgəsində ermənilərin azərbaycanlı əhalisinə qarşı törətdikləri cinayətlər" mövzusu üzərində çalışıb. Tədqiatda Türkiyə Respublikasının Başbakanlık Osmanlı Arxivində saxlanılan, XIX əsrin sonu–XX əsrin əvvəllərini əhatə edən və Cənubi Azərbaycanın Salmas bölgəsinin tarixi ilə bağlı bir sıra rəsmi sənədlər ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilib və tədqiq olunub. Tədqiqat çərçivəsində osmanlıca yazılmış sənədlərin transliterasiyası verilib, Azərbaycan dilinə tərcümə edilib və müvafiq izahlar və xülasələr verilib.

Elmi işçi Hüseyn Günəşli 2019-2020-ci illərdə "Türkiyə Respublikasına qarşı erməni terrorizmi (1965-1994)" mövzusunu araşdırıb. Tədqiqatda təxminən 30 illik dövr ərzində, yəni dünyada soyuq müharibə getdiyi dövrdə və Sovet İttifaqının süquta uğradığından sonra 1990-cı illərin ilk yarısında erməni təşkilatlarının Türkiyə Respublikasına qarşı yönəlmiş terror fəaliyyəti təhlil edilib. Soyuq müharibənin ən kəskin dövründə Türkiyə və Avropa İqtisadi Birliyi arasında ortaqlıq müqaviləsinin imzalanması, Türkiyənin Avropaya inteqrasiyası prosesinin başlanması, bununla Türkiyənin düşmənlərinin aktivləşməsi məsələləri nəzərdən keçirilib, 1964-cü ilin avqustunda erməni məsələsinin yenidən gündəmə gəlməsi, Ermənistan SSRİ-də erməni katalikosu I Vazgen və Böyük Kilikiya katolikosu I Xorenin bəyanatlarla çıxış edərək, dünya ermənilərinin Türkiyəyə qarşı birləşməyə çağırmaları, bunun nəticəsi olaraq, artıq 1970-ci illərdən etibarən erməni təşkilatlarının fəaliyyətində terror aksiyalarının əsas yer tutması, ASALA kimi təşkilatın Avropa, Asiya və Amerikadakı türk diplomatlarına, iş adamlarına və şirkətlərin ofislərinə terror hücumlarının həyata keçirməsi prosesi araşdırılıb.

Böyük elmi işçi Mirzə Ənsərli 2019-2020-ci illərdə "Türkiyə Respublikasında türkologiya elminin inkişafı və müasir vəziyyəti" işini yerinə yetirib. Müəllifin bir neçə il ərzində dünya türkologiyasının inkişafı və görkəmli simaları mövzusunda apardığı tədqiqatların məntiqi davamı olaraq hazırlanmış və üç hissədən ibarət işin birinci hissəsində XIX – XX əsrin əvvəllərində Osmanlı dövlətində, ikinci hissədə isə 1923-2020-ci illər ərzində Türkiyə Respublikasında türkologiyaya aid elmi tədqiqatların təhlili öz əksini tapıb. Üçüncü hissədə Türkiyə Respublikasında türkologiya elmi ilə məşğul olan mərkəzlər haqqında və həmin mərkəzlərdə çalışan türkoloqların elmi fəaliyyətlərinə dair araşdırmalar aparılıb.

İnstitutun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, t.ü.f.d. Gülər Qafqazlı 2019-2020-ci il-

lərdə "Yusif ibn Tağriberdinin "Ən-nücum əz-zahira fi muluk Mısır va əl-Qahira" əsərində Osmanlı dövlətinin siyasi tarixinin əksi" mövzusunu araşdırıb. Tədqiqatda Osmanlı dövlətinin Misir ilə əlaqələrindən bəhs olunur. Tədqiqat işində Osmanlı qoşunlarının Misirin Qahirə və digər şəhərlərində apardıqları hərbi əməliyyatlar, yerli hakimiyyət nümayəndələri ilə bağlanmış razılaşmalar və digər tarixi hadisələr öz əksini tapıb. Müəllif əsərdə hərbi döyüşlərdən sonra tutulan əsirlərin İskəndəriyyədəki həbsxanaya aparılmasına, orada olan şəxslərin ümumi vəziyyətinə, onlarla davranışlara da yer verib. Bununla yanaşı, əsərdə Azərbaycanın Ağqoyunlu və Qaraqoyunlu dövlətləri haqqında da bəzi məlumat verilib, mənbədə keçən bir sıra türk tayfalarının adları sadalanıb.

İnstitutda "Ərəb ölkələrinin tarixi inkişafında Avrasiya regionu və Azərbaycanla siyasi və iqtisadi əlaqələri" mövzusu çərçivəsində aparılan tədqiqatlar sırasında Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçi Cabir İskəndərov 2017-2020-ci illərdə "Erkən islam dövrünün rəsmi sənədləri, (tərcümə, şərhlər, qlossariy və ərəb mətnlərinin hazırlanması)" mövzusu üzərində çalışıb. Erkən orta əsr ərəb tarixi sənədləri ancaq ərəb tarixçiləri və coğrafiyaşünaslarının əsərlərində günümüzə qədər çatmışdır. Tədqiqat işində həmin sənədlərin müxtəlif əsərlərdən toplanması, tərcüməsi və şərhlərin hazırlanması həyata keçirilib. Sənədlərin məzmunu ərəb istilası dövrünün tarixi gerçəkliklərini olduğu kimi təsvir edir. Mətnlərdə təsadüf edilən tarixi terminlər və ifadələr izah olunub. Toplanmış sənədlərin tərcüməsi tarixçilər və orta əsr ərəb yazılı abidələrini öyrənən tədqiqatçılar üçün dəyərli töhfədir.

Elmi işçi Jalə Vəlinin 2018-2020-ci illərdə "Erkən xilafət dövründə ərəb ərazilərində və Azərbaycanda dövlət qurumlarının formalaşması və inkişafı" mövzusunda apardığı tədqiqat ərəb işğalları nəticəsində meydana gəlmiş xilafət kimi böyük imperiyanın dövlət təsisatlarının yaranması məsələlərinə həsr edilib. Fəth olunmuş ərazilərin idarə edilməsi üçün ərəblərə qədərki yerli hakimiyyət qurumlarının tədricən əvəzlənməsi və yerli şəraitə uyğun yeni təsisatların qurulması prosesinin mərhələləri təsvir edilib. Qurumların təşəkkülündə iştirak etmiş siyasi qüvvələr, dini-ideoloji amillər və yerli zadəganların maraqlarının təmsil edilməsi dəyərləndirilib.

Böyük elmi işçi İsmayıl Əsədovun 2019-2020-ci illərdə icra etdiyi Suriya böhranının həlli yolları və onların dünya siyasətinə mümkün təsirləri" işində Yaxın Şərqin zamanımızda ən qaynar və böhranlı ölkəsi olan Suriyada silahlı qarşıdurmanın həlli yollarına dair beynəlxalq təklif və nizamlanma modelləri araşdırılıb. Rusiya, ABŞ, beynəlxalq təşkilatların yanaşmaları və böhranın həlli yolunda onların təklifləri Yaxın Şərq siyasətinə təsirləri prizmasından qiymətləndirilib.

Böyük elmi işçi, t.ü.f.d., Elmira Əlizadə 2018-2020-ci illərdə "Cəlal əd-Din əs-Suyutinin "Tarix əl-xuləfa" əsərinin ərəb dilindən tərcüməsi və şərhləri" mövzusu üzərində işləyib. Cəlal əd-Din əs-Suyutinin "Tarix əl-xuləfa" əsəri Əməvilər və Abbasilər sülalələrinin qısa tarixi kimi etibarlı erkən mənbələrdən biri sayılır. Əsər hadisələrə obyektiv münasibəti olan, yəni istər Abbasilər, istər Əməvilərə aid qısa və məzmunlu məlumat təqdim edən kiçik həcmli tarixi mənbədir. Əsərin tərcüməsi və şərhləri erkən orta əsr ərəb xilafəti tarixinə dair qiymətli mənbə və ərəbdilli mənbələrdən istifadə etmək üçün mühüm vəsait olacaqdır.

Böyük elmi işçi, t.ü.f.d. Nüşabə Bayramova 2018-2020-ci illərdə "Orta əsr müsəlman dövlətində ədliyyə və məhkəmə sistemi (VIII-X yüz.): Məhəmməd əl-Xuşani "Tərix əl-Qudat", ərəb dilindən tərcümə və şərhlər" işini icra edib. İbn Xuşaninin "Kitab tarix əl-Qudat" əsəri Əndəlüs Əməvi xəlifəsi III Əbd ər-Rahmanın (912-961) hakimiyyət illərinə təsadüf edir. Əsər Əndəlüs Əməvilər xilafətinin məhkəmə sisteminin öyrənilməsi üçün ən qiymətli və etibarlı mənbələrdən sayılır. "Kitab tarix əl-Qudat" müsəlman ədliyyə sisteminin fəaliyyətinə aid məlumatla yanaşı qazıların və ədliyyə sistemində çalışan başqa vəzifəli məmurların həyat və fəaliyyətinə dair maraqlı və nadir faktları işıqlandırır.

Kiçik elmi işçi Samid Bağırov 2018-2020-ci illərdə "Yaxın Şərq böhranı və "əl-İxvan əl-müslimin" amili (2011-2013)" mövzusunda araşdırma aparıb. Tədqiqatda Əl-İxvan əl-müslimin hərəkatının təşəkkül tarixi araşdırılıb. Ərəb ölkələrində hərəkatın son onillikdə fəallaşması səbəbləri və fəaliyyəti üçün münasib şəraitin yaradılmasına gətirib cıxaran ideoloji və siyasi böhran işıqlandırılıb. Ərəb ölkələrinin hökumətləri və Əl-İxvan əl-müslimin hərəkatının təşkilatları arasında münasibətlərə dair elmi dəyərləndirmələr verilib.

Kiçik elmi işçi Orxan Nəcəfov 2019-2020-ci illərdə "Suriyada Bəəs partiyası hakimiyyətinin keçid dövrü (1994-2000)" işini icra edib. Tədqiqat işində Suriya prezidenti Bəşər Əsədin hakimiyyətdə möhkəmlənməsi mərhələləri araşdırılıb. Hafiz Əsəddən sonra Suriya siyasi rəhbərliyinə iddiaları olan qruplar və şəxslərin fəaliyyəti təsvir edilir, nəticədə Bəşər Əsədə üstünlük verilməsi göstərilib, onun hakimiyyətdəki keçid dövrünün mərhələləri əsaslandırılıb. Bəşər Əsədin hakimiyyətdə qalması üçün münasib olan regional siyasət, amillər və daxili siyasi şərait təhlil edilib.

"Asiya-Sakit Okean regionu ölkələrinin geosiyasi vəziyyətinin tədqiqi" mövzusu çərçivəsində t.ü.f.d Ülkər Abdullayeva 2019-2020-ci illərdə "ABŞ-İran-Çin geosiyasi üçbucağında İran-Çin əlaqələri" mövzusu üzərində çalışıb. Tədqiqatda İran-ABŞ və Çin-ABŞ ziddiyyətləri kontekstində Çinin İranla münasibətləri araşdırılıb. İki fəsildən ibarət olan tədqiqatən birinci fəslində Çin və İran arasında yaxınlaşmaya səbəb olan ABŞ-la hər iki dövlətin problemləri, ABŞ-ın iki ölkə arasında yaxınlaşmaya münasibəti və bu prosesə mane olmaq üçün gördüyü tədbirlərindən bəhs olunub. İkinci fəsildə Çin və İran arasında hərtərəfli əməkdaşlıq, bunun nəticələri və tərəflər üçün faydaları təhlil edilib.

"Yaponiyanın ASEAN ölkələrinin inkişafına xüsusi yardımı" mövzusunda işi kiçik elmi işçi Afaq Nərimanova 2019-2020-ci illərdə yerinə yetirib. Tədqiqat işində Yaponiyanın İnkişafa Rəsmi Yardım Proqramından (Japanese Official Development Assistance - ODA), bu proqrama əsasən xarici siyasətdə yeni bir mərhələyə keçməyə qərar verən Yaponiyanın Cənub-Şərqi Asiyada öz mövqeyini genişləndirməsi və bölgədəki iqtisadi-siyasi maraqlarından bəhs edilib. İki hissədən ibarət olan tədqiqatın birinci fəslində 1989-cu ildən indiyədək Yaponiyanın dünyanın ən böyük İnkişafa Rəsmi Yardım Proqramının (ODA-nın) donoru olması, ikinci fəslində isə Yaponiyanın ASEAN ölkələrinin inkişafına rəsmi yardımının səciyyəvi xüsusiyyətləri araşdırılıb.

Problemə aid digər mövzu "Mərkəzi Asiya ölkələrinin sosial-iqtisadi inkişafının aktual problemləri"dir. Bu mövzu çərçivəsində görülən işlər sırasında Mərkəzi Asiya ölkələri şöbəsinin müdiri, i.ü.e.d. Dünyamalı Vəliyev 2019-2020-ci illərdə "Mərkəzi Asiya ölkələrinin dünya birliyinə inteqrasiyası: müasir vəziyyət və inkişaf perspektivləri" mövzusu üzərində çalışıb. Tədqiqatın "Mərkəzi Asiya ölkələrinin dünya birliyinə inteqrasiyası: müasir vəziyyət" adlanan birinci mərhələsində Mərkəzi Asiya dövlətlərinin beynəlxalq arenaya inteqrasiyasının müasir vəziyyətinə ümumi bir baxış verilib. "Mərkəzi Asiya ölkələrinin dünya birliyinə inteqrasiyasının inkişaf perspektivləri" adlanan ikinci mərhələdə tədqiq olunan məsələnin gələcək perspektivləri araşdırılıb.

Aparıcı elmi işçi, h.ü.f.d. Rauf Qarayev 2019-2020-ci illərdə "Mərkəzi Asiya regionunda terrorizmlə və dini ekstremizmlə bağlı mübarizə problemi" mövzusunda işi yerinə yetirib. Mərkəzi Asiya regionunda təhlükəsizliyin qorunması və saxlanılmasını qeyri-sabit edən vacib bir amil dini ekstremizm təhlükəsidir. Mərkəzi Asiya regionunda dini ekstremizm xilafət tipli islam dövlətinin yaradılmasına, yəni mövcud olan müstəqil suveren dövlətlərin ləğvinə yönəlib. Bu halda da dini ekstremizm təhlükəsi oradan gələ bilən Əfqanıstanın bir çox vilayətlərinin postsovet Mərkəzi Asiya regionu ilə yaxınlığı az əhəmiyyət kəsb etmir. Onu da qeyd etmək lazımdır ki, bir çox hallarda dini ekstremizm terror təşkilatlarının fəaliyyəti ilə sıx bağlıdır.

Kiçik elmi işçi Hülya Aslanovanın 2019-2020-ci illərdə icra etdiyi "Mərkəzi Asiyanın ictimai-siyasi proseslərində ərəb amili" işində Mərkəzi Asiyanın ictimai-siyasi proseslərində ərəb amili elmi-nəzəri baxımdan araşdırılıb. İş iki mərhələdən ibarətdir. Birinci mərhələdə Mərkəzi Asiyanın VII-VIII əsrlərdə İslam dinini yaymaq, ikinci mərhələdə isə, bu regionda yaşayan və "Mərkəzi Asiya ərəbləri" adlanan etnik azlıqlar araşdırılıb.

Kiçik elmi işçi Dilbər Hüseynli 2019-2020-ci illərdə "Azərbaycan-Qazaxıstan münasibətlərinin siyasi-strateji istiqamətləri" mövzusu üzərində çalışıb. Tədqiqatın birinci mərhələsində Qazaxıstan Respublikasının Azərbaycan Respublikası ilə siyasi münasibətlərinin müasir vəziyyətinə ümumi baxış verilib, ikinci mərhələsində isə iki ölkə arasındakı münasibətlərin gələcəkdəki inkişaf perspektivləri təhlil olunub.

Kiçik elmi işçi Aysel Vəliyeva 2019-2020-ci illərdə "Müstəqillik illərində Mərkəzi Asiya ölkələrində qadın faktoru" mövzusunu araşdırıb. Tədqiqatın birinci mərhələsi "Sovet dövrü və sonrakı dövrdə qadınların sosial vəziyyəti" adlanır. Burada Sovet dövründə, xüsusən, 1917-ci il Sosialist inqilabından sonra və SSRİ-nin dağılmasının ardından qadının cəmiyyətdəki mövqe-

yi, qadın hüquqları, gender bərabərliyi, qadının seçmə və seçilmə hüququ, təhsil səviyyəsi və s. kimi məsələlərə toxunulub. İşin ikinci mərhələsi "Sosioloji baxımdan türkmən ailə quruluşu" adlanır. Burada Mərkəzi Asiya regionunda müstəqil dövlətlərin qurulması zamanı yaranan dəyişikliklərin qadınların mövqeyinə təsirindən, xüsusilə də, türkmən ailə quruluşundan, adət-ənənələrindən, mədəniyyətinin inkişafında qadının rolundan bəhs edilib.

İnstititutda "Şərq filologiyasının, Şərq ölkələri ilə Azərbaycanın filoloji əlaqələrinin tədqiqi" problemi çərçivəsində bir sıra mövzular araşdırılıb. Bu problem daxilində "Azərbaycan-İran filoloji əlaqələrinin öyrənilməsi" mövzusu çərçivəsində İran filologiyası şöbəsinin müdiri, f.ü.f.d. Məsiağa Məhəmmədi 2019-2020-ci illərdə "Əbdülqadir Bidelin ədəbi irsi" mövzusunu araşdırıb. Tədqiqat işi son orta əsrlərdə Hindistanın farsdilli ədəbiyyatının görkəmli nümayəndəsi Əbdülqadir Bidelin (1644-1720) poetik yaradıcılığının araşdırılmasına həsr olunub və iki hissədən ibarətdir. Birinci hissədə Bidelin dövrü, həyatı və ədəbi irsi haqqında məlumat verilib, onun yaradıcılığının ideya-tematik xüsusiyyətlərini şərtləndirən ictimai-mədəni amillər təhlil olunub. Qeyd olunub ki, özündən sonra zəngin ədəbi irs (150 min beytə qədər) qoyub getmiş şair çeşidli janrlarda qələmini sınamış, "Heyrət tilsimi", "Dörd ünsür", "İrfan" kimi iri həcmli əsərlərlə yanaşı, çoxsaylı lirik şeirlər (qəzəl və rübailər) də yazmışdır. Özünəməxsus fəlsəfi-estetik mündəricəsinə görə Bidel Hindistanın farsdilli ədəbiyyatında yeni bir səhifə açmışdır. İkinci hissədə başlıca olaraq lirik şeirləri əsasında Bidelin poetik üslubunun əsas parametrləri nəzərdən keçirilib. Bidel farsdilli poeziyada "Hind üslubu"nun ən parlaq simalarından biri, həmin bədii cərəyanın zirvəsi sayılır. Onun yaradıcılığı klassik Azərbaycan şairlərinin, o cümlədən "Hind üslubu"nun ən görkəmli nümayəndəsi Saib Təbrizinin poeziyası ilə yaxından səsləşir. Tədqiqat işi Azərbaycan şərqşünaslığında Əbdülqadir Bidel haqqında ilk geniş araşdırma kimi elmi-praktik əhəmiyyət daşıyır və onun ehtiva etdiyi material Hindistanın farsdilli ədəbiyyatı üzrə xüsusi kursların tədrisində istifadə oluna bilər.

Həmin şöbənin böyük elmi işçisi, f.ü.f.d. Rəna Rzayeva 2018-2020-ci illərdə "Əbubəkr ibn Xosrovun "Munisnamə" əsərinin Azərbaycan dilinə tərcüməsi, ön söz, şərhlər və qeydlər" işini icra edib. XII əsr müəllifi Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsəri fars dilindən Azərbaycan dilinə tərcümə edilib. Əsərin əlyazması, təxminən, 750 səhifədən ibarətdir. 17 fəsildən ibarət olan əsər şərti olaraq, didaktik və bədii olmaqla, iki hissəyə ayrılır. Nəticə etibarilə, hər iki hissə didaktik xarakter daşıyır. Didaktik adlandırılan hissə tarixi adlara və hadisələrə istinadən yazılmışdır və 16 fəsli əhatə edir. 17-ci fəsil öz-özlüyündə 31 hekayətdən ibarətdir və didaktik hissədən dəfələrlə böyükdür. Bu hissədə müxtəlif hekayətlər, nağıllar yer alıb.

Aparıcı elmi işçi, f.ü.f.d. Zümrüd Rəhimova 2019-2020-ci illərdə "Şeyx Məhəmməd Canın "Leyli və Məcnun" məsnəvisinin tərcüməsi və ön sözün yazılması" işini icra edib. Şeyx Məhəmməd Can XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində yaşayıb və "Leyli və Məcnun" poemasını 1884-cü ildə tamamlayıb. Bu, kürd ədəbyyatında "Leyli və Məcnun"a yazılmış nəzirələr sırasında ən böyük həcmli əsərdir. Poema 144 səhifədə 20 bölmədən ibarətdir. Əsər ilk dəfə 1992-ci ildə Stokholmda orijinal dildə - kürd dilinin kurmanci dialektində çap olunub. Əsər Nizami Gəncəvinin "Leyli və Məcnun"una nəzirə kimi maraq doğurub, müəyyən qədər özəlliklərə də malikdir. Əsərin hazırkı tərcümədən əlavə tərcüməçi tərəfindən yazılan ön sözündə Şeyx Məhəmməd Canın ön sözündəki Nizami Gəncəvi və Məhəmməd Füzuli ilə bağlı yanlış fikirlərə münasibət bildirilib.

Aparıcı elmi işçi, f.ü.f.d. Səadət Şıxıyevanın 2017-2020-ci illərdə yerinə yetirdiyi "XV əsr hürufi tərcümə ədəbiyyatı" mövzusunda tədqiqat işində ilk dəfə olaraq orta əsrlər hürufi tərcümə ədəbiyyatı təfərrüatlı və sistemli tədqiqata cəlb olunub. Bu tədqiqatın "Mənzum hürufi tərcümə əsərləri" adlı 1-ci fəslində Nəsiminin həm nəzm, həm də nəsr əsərləri əsasında tərcüməçilik fəaliyyətindən bəhs olunub, digər azərbaycanlı şair Rəfiinin "Bəşarətnamə" və "Gəncnamə" əsərlərində Fəzlullahın farsca əsərlərindən türkcə mənzum poetik fraqmentlər və Fəzlullahın "Ərşnamə"sinin Amiloğlu tərəfindən türkcəyə mənzum tərcüməsi dəyərləndirilib. Monoqrafiyanın "Mənsur hürufi tərcümə əsərləri" adlı 2-ci fəslində Fəzlullahın mühüm əsərlərindən olan farsca "Cavidannamə"nin türkcəyə mənsur tərcümələri, bu əsasda mətnə sadiqlik və sərbəstliklər dəyərləndirilib. Hürufi müəlliflərin farsca "Xabnamə"lərinin türkcəyə tərcümələri bədiyyat, fəlsəfi düşüncə və tarixilik baxımından təh-

lil edilib. Monoqrafiyanın "Hürufi tərcümə əsərləri orta əsrlər tərcümə ənənəsi kontekstində" adlı 3-cü fəslində tərcüməçiliklə məşğul olan hürufi müəlliflərin bu fəaliyyəti orta çağın digər tərcümələri ilə müqayisəli təqdim olunub.

Böyük elmi işçi, Şəmsi Əhmədov 2019-2020-ci illərdə Avqust Bentonun "Səyahətnamə" əsərini tərcümə edib. Milliyyətcə fransız olan Avqust Benton XIX əsrin əvvəlində İrana gəlmiş və burada Abbas Mirzənin ordusunun yenidən qurulmasında iştirak etmişdir. Ş.Əhmədov əsəri tərcümə etməklə yanaşı, giriş sözü və şərhlər yazıb. Əsər o dövrün ictimai-iqtisadi, siyasi, xüsusən, ordu həyatı, tarixi, coğrafiyası, məişəti haqqında maraqlı məlumatlar verir.

Böyük elmi işçi, f.ü.f.d Aybəniz Həsənova 2019-2020-ci illərdə "Fələki Şirvani divanında onomastik vahidlər" mövzusu üzərində çalışıb. Tədqiqat işində XII əsrin I yarısında yaşamış, dövrünün nüfuzlu münəccimlərindən və məşhur alimlərindən olmuş Azərbaycan şairi Fələki Şirvaninin divanında antroponim, toponim, kosmonim, zoonimlər sistemli şəkildə toplanıb, hərtərəfli təhlil edilib.

Böyük elmi işçi, f.ü.f.d. Günay Verdiyeva 2017-2020-ci illərdə "Müasir fars dilində elmi terminologiya (Azərbaycan dili ilə müqayisədə)" mövzusunda araşdırma aparıb. İş müasir fars dilində elmi terminologiyanın inkişafına həsr olunub. Tədqiqatda müasir fars dilində mövcud olan elmi terminologiya araşdırılıb. Elmi terminologiyanın təbəqələrini təşkil edən texniki, tibbi, bioloji, ictimai-siyasi və s. terminlər təhlil olunub, nümunələr gətirilib, mənalar açıqlanıb, müxtəlif sahələrə aid tematik lüğətlər nəzərdən keçirilib. İş üç mərhələdən ibarətdir. Birinci və ikinci mərhələlərdə müasir fars dilinin leksikasına daxil olan texniki, tibbi, ictimai və siyasi terminlər haqqında bəhs olunub. İşin sonuncu mərhələsi olan "Fars və Azərbaycan dillərində elmi terminlərin müqayisəli təhlili" hissəsində Azərbaycan dilində mövcud olan elmi terminologiya tədqiqata cəlb olunub, fars dili ilə paralellər aparılıb.

"Azərbaycan-türk ədəbi əlaqələrinin tədqiqi" mövzusu çərçivəsində Türk filologiyası şöbəsinin aparıcı elmi işçisi f.ü.f.d. Barat Osmanova 2020-ci ildə "Cümhuriyyət dövrü Türk poeziyasının inkişaf mərhələləri ("Qarip" cərəyanına qədər)" mövzusu üzərində çalışıb. Tədqiqat işinin giriş hissəsində divan ədəbiyyatı türk şeirinin ümumi mənzərəsi haqqında məlumat verilib. Sonra XIX əsr Türkiyədə baş verən ictimai-siyasi proseslər fonunda poeziyada izlənilən məzmun və mövzu yenilikləri əhatəli şəkildə tədqiq edilib. Tədqiqat obyekti kimi yeni dövrün 1940-cı illər Qərib şeirinə qədərki Tənzimat - "Sərvəti-Fünun" - Milli ədəbiyyat dövrləri şeiri araşdırmaya cəlb edilib.

Baş elmi işçi, f.ü.e.d., prof. Aydın Abiyev 2018-2020-ci illərdə "Cümhuriyyətə qədər Türkiyə ədəbiyyatının təşəkkülü və inkişafı" mövzusunda işi yerinə yetirib. Tədqiqatda Fecr-i Ati (Dan vaxtının parıltısı) dövrü türk ədəbiyyatının məşhur şair və yazıçılarının həyat və yaradıcılığı araşdırılıb. Tanınmış şairlər M.E.Yurdakul, R.Tofiq, M.E.Ersoy və İ.Safa haqqında ətraflı məlumat verilib. F.A.Aykaç yaradıcılığında dahi Azərbaycan şairi M.Füzuli yaradıcılığının təsirinin elmi-bədii aspektləri araşdırılıb. Həmçinin görkəmli nasirlər X.E.Adıvar, H.R.Gurpınar və H.S.Tanrıöverin həyat və yaradıcılığı araşdırmanın tədqiqat obyekti olub.

Aparıcı elmi işçi, f.ü.f.d., Rəşid Quliyevin 2020-ci ildə apardığı "XX yüzillik Türkiyə nəsrində Çanaqqala savaşı mövzusunun bədii əksi" mövzusunda araşdırmasında "Türkiyə hərb tarixinin qəhrəmanlıq səhifəsi olan Çanaqqala döyüşləri mövzusunun Türkiyənin ictimai-siyasi həyatında yeri və ədəbiyyat tarixində əksi tədqiq olunub. Mövzu iki bölümdə işlənib. Birinci bölümdə mövzunun lirik nəsrdə və publisistikada, ikinci bölümdə isə epik nəsrdə bədii əksi təhlil edilib. Nəticədə elmi fikirlər yekunlaşdırılıb.

Elmi işçi Xanım Abdullayeva 2020-ci ildə "II Məşrutiyyət dövrü türk ədəbiyyatının əsas xüsusiyyətləri" mövzusunu araşdırıb. Tədqiqat işində II Məşrutiyyət dövrü türk ədəbiyyatının əsas xüsusiyyətləri, bu dövrdə türk ədəbi, bədii və mədəni həyatının spesifik cəhətləri araşdırılıb. II Məşrutiyyət dövrü istər siyasi, istərsə də ədəbi-mədəni baxımdan Türkiyə tarixinin mürəkkəb dövrlərindəndir. Elmi işdə ilk növbədə bu barədə ətraflı məlumat verilib. Təhlil prosesində II Məşrutiyyət dövrü türk ədəbiyyatının ideya-məzmun, janr və üslub xüsusiyyətləri əsas araşdırma obyekti olub. Nəticədə tədqiqat işi yekunlaşdırılıb.

Baş elmi işçi, f.ü.e.d., prof. Elman Quliyev 2020-ci ildə "Tənzimat ədəbiyyatının yaranması və bədii-estetik xüsusiyyətləri" mövzusu üzərində çalışıb. Tədqiqat işində XIX əsrin II yarısında yaranmış, 35 illik bir dövrü əhatə edən Tənzimat ədəbiyyatının formalaşması, onun forma,

mövzu və ideya cəhətləri təhlil edilib. Araşdırmada Türkiyə türk ədəbiyyatının yeni mərhələsində poeziya, nəsr, dramaturgiyanın özünəməxsus inkişaf mərhələlərinə xüsusi diqqət ayrılıb, ayrı-ayrı sənətkarların yaradıcılıqları daxilində Tənzimat ədəbiyyatının bədii-estetik xüsusiyyətləri öyrənilib. Bu sırada Tənzimat ədəbiyyatının görkəmli nümayəndələri olan Şinası, Ziya Paşa, N.Kamal, Ə.Hamid, Əhməd Midhət Əfəndi və s. yazarların yaradıcılıqlarına daha çox istinad edilib.

Kiçik elmi işçi Gülnisə Usubova 2020-ci ildə "Türk və türkmən dili arasında "saxta" ekvivalentlərin müqayisəli təhlili" işini icra edib. Tədqiqatda türk və türkmən dilləri arasında "saxta" və ya "yalançı" ekvivalentlər məsələsi tədqiq edilib. Hər iki dildə "yalançı" ekvivalentlər müəyyənləşdirilib, onların mənaları izah edilib və müqayisəsi verilib.

Kiçik elmi işçi Aytən Rəşidli 2020-ci ildə "Postmodernist türk romanlarında mətnlərarası əlaqə üsulları" mövzusunda araşdırma aparıb. Tədqiqatda mətnlərarası əlaqə metodları olan palimpsest, kollaj, parodiya və s. haqqında ətraflı nəzəri məlumat verilib. Bundan başqa tədqiqat işində bu metodların postmodernist türk romanlarındakı inikası araşdırılıb.

Kiçik elmi işçi Arzu Dadaşova 2020-2022-ci illərdə "Türk ədəbiyyatında tarixi romanın təşəkkül mərhələləri" mövzusu üzərində çalışıb. Tədqiqatda dünya ədəbiyyatında tarixi roman janrının təşəkkülünə nəzər salınıb, türk ədəbiyyatında tarixi romanın təşəkkül mərhələləri araşdırılıb, tarixi romanın yaranmasını şərtləndirən amillər üzərində durulub. XIX əsrdə tarixi roman janrında qələmini sınamış Ahmet Mithat Əfəndi və ilk tarixi romanın müəllifi olan Namiq Kamalın əsərləri araşdırılıb.

"Ərəb ədəbiyyatının və dilçilik elminin aktual problemləri" mövzusu üzrə aparılan tədqiqatlardan ilk növbədə Ərəb filologiyası şöbəsinin müdiri işləmiş mərhum professor, f.ü.e.d. Vilayət Cəfərovun 2018-2020-ci illərdə icra etdiyi "İraq şairləri Məruf-ər-Rusafi və Cəmil Sidqi əz-Zəhavinin İstanbul dövrü yaradıcılıqları" işini qeyd etmək olar. İraq ingilislərin Birinci dünya müharibəsinin sonunda baş vermiş istilasına qədər Osmanlı imperiyasının tərkibində olmuş və bu müddətə qədər İraq şairləri Cəmil Sidqi əz-Zəhavi və Məruf ər-Rusafinin İstanbulla əlaqələri geniş olmuşdur. Onlar müxtəlif vaxtlarda İstanbulda işə dəvət olunmuş, İraqdan Türkiyəyə Millət Məclisinə - Məclisi Məbusana deputat seçilmişlər. Tədqiqat işində şairlərin İstanbul həyatından və Türkiyə ilə bağlı yaradıcılıqlarından bəhs olunub.

Nəşriyyat və elmi informasiya təminatı şöbəsinin müdiri, f.ü.f.d. Ruhəngiz Cümşüdlü 2019-2020-ci illərdə "Niyazi əl-Misrinin ərəbcə şeirlərinin tərcümə və tədqiqi" mövzusunda tədqiqatında XVII əsrdə Xəlvətilik təriqətinin niyazilik (misirilik) qolunun yaradıcısı Niyazi Misrinin yaradıcılığında xüsusi yer tutan ərəbcə şeirləri təhlil edilib. Bu şeirlər ərəb dilindən Azərbaycan dilinə tərcümə olunub. Tədqiqat işində Niyazi Misrinin ərəbcə şeirlərinin bədii xüsusiyyətləri araşdırılıb, fəlsəfi-bədii tutumu konkret şeir nümunələri əsasında təhlil olunub.

Ərəb filologiyası şöbəsinin böyük elmi işçisi f.ü.f.d. Xanımzər Kərimova, 2019-2020- ci illərdə "Ərəb nəsrinin formalaşmasında İbn Əl-Muqəffanın rolu" mövzusunda araşdırma aparıb. Tədqiqat işində ərəb ədəbiyyatında ərəb nəsrinin yarandığı dövr, həmçinin ərəb nəsrinin yaradıcıları və əsərləri araşdırılıb. Ərəb mədəniyyətinin "qızıl əsri"nin ən parlaq şəxsiyyətlərindən biri, İran mənşəli ərəb yazıçısı Abdullah ibn əl-Müqəffanın ərəb nəsrinin formalaşmasında rolundan danışılaraq, yaradıcılığı işıqlandırılıb. Qeyd olunur ki, VIII əsrin ikinci yarısında orta əsrlər ərəb poeziyasına yeni janrlar və mövzular gətirmiş İran cərəyanı, nəsrin inkişafına daha köklü təsir göstərib və məhz bu dövrdə yeni nəsr janrları meydana gəlib, bədii nəsrin ilk nümunələri yaradılaraq, ərəb ədəbiyyatında yüksək nəticələr əldə olunub.

Aparıcı elmi işçi, f.ü.f.d. Laura Orucova 2018-2020-ci illərdə "Sibaveyhinin "Əl-Kitab" əsərinin ərəb dilçiliyinin inkişafına təsiri ("Əl-Kitab" əsərində əsas mövzuların tərcüməsi və şərhi)" işini icra edib. Tədqiqatın birinci fəslində ərəb dilçiliyinin yaranma tarixi, onun inkişaf mərhələləri işıqlandırılıb. İkinci fəsildə ərəb dilçiliyinin banilərindən olan Sibaveyhi və onun məşhur əsəri "əl-Kitab" haqqında ətraflı məlumat verilib. Üçüncü fəsildə "əl-Kitab" əsərinin ərəb dilçiliyinin inkişafında yeri və aparıcı rolunu daşıyan əhəmiyyətindən danışarkən onun məzmunu araşdırılır və şərhlər verilib.

Böyük elmi işçi, f.ü.f.d. Zemfira Rüstəmova 2020-ci ildə "Azərbaycan dilində işlənən ərəb mənşəli cəm sözlərin əmələ gəlməsi yolları" mövzusunda tədqiqat aparıb. Tədqiqatın əsas məqsəd ərəb dilində cəm, təsniyə, toplu kimi iş-

lənən sözlərin Azərbaycan dilinə keçərək necə işlədilməsini, hansı məna dəyişikliyinə məruz qaldığını izah etməkdir. Tədqiqat 2 istiqamətdə aparılıb: 1) Ərəb mənşəli cəm formalı sözlərin Azərbaycan dilində tək cəm, toplu kimi işlədilməsi; 2) Ərəb mənşəli cəm formalı sözlərin Azərbaycan dilində əmələ gətirdiyi mürəkkəb sözlərin, tərkiblərin təsnifatı.

Kiçik elmi işçi Əzizə İsmayılova 2019-2020-ci illərdə "Xilafət dövründə islam mədəniyyətinin Cürci Zeydan yaradıcılığında inikası" mövzusunda apardığı tədqiqatda tanınmış ərəb yazıçısı Cürci Zeydanın "İslam mədəniyyəti tarixi" adlı beşcildlik tədqiqat əsərinə əsaslanaraq, Ərəbistan ərazisində şeir, onun yaranma tarixi, sonrakı mərhələlərdə keçdiyi inkişaf yolu, əruz vəzni, ərəblərdə musiqi mədəniyyəti və s. kimi incəsənət növlərindən bəhs edib. Bu əsərdə Cürci Zeydan ərəb şeirinin keçdiyi yolu işıqlandırır və həmçinin Əməvilərin məşhur şairləri kimi tanınan Cərir, əl-Əxtəl və Fərəzdəq, "Muvəllidun" şairləri sinfinə daxil olan Abbasi şairləri Bəşşar Aqili, Əbul Ətahiyə, Əbu Nuvas, Əbu Təmmam və əl-Buhturidən söhbət açıb. Əruz elminin 15 bəhrini kəşf edən Xəlil bin Əhməd əl-Fərahidi, daha sonra ona bir bəhr əlavə edən əl-Əhfas haqqında maraqlı fikirlər də tədqiqatda öz əksini tapıb.

"Şərqin yazılı abidələrinin tədqiqi, tərcüməsi və nəşri" problemi üzrə "Orta əsrlər şərq tarixi, fəlsəfi və ədəbi mənbələrinin tədqiqi və nəşri" mövzusu çərçivəsində Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin böyük elmi işçisi, f.ü.f.d. İnci Qasımlı 2019-2020-ci illərdə "Şəmsəddin Sivasinin "Mənazili-l-arifin" "Ariflərin mənzilləri" əsəri. (Əlyazma əsasında)" mövzusu üzərində çalışıb. Tədqiqatda orta əsrlər türk müəllifi Şəmsəddin Sivasinin "Mənazili-l-arifin" adlı əsəri araşdırılıb. Qeyd olunub ki, bu əsərdə mühüm həyati məsələlər barədə bəhs olunur, o cümlədən Quran və peyğəmbərlərin həyatına əsaslanaraq bu məsələlərlə əlaqədar nümunələr gətirilmiş, açıqlama verilmişdir. Əsərin əsas mahiyyəti orta əsr türk dilinin nümunəvi şəkildə işlənməsi, dilin leksik gözəlliyinin saxlanılması və təmiz türkcənin istifadə olunmasıdır.

Kiçik elmi işçi Pərviz Ağayev 2018-2020-ci illərdə "Xəridətul-Qəsr və Cəridətul-əsr" antologiyasında Əcəm şairlərinin yazdığı ərəbcə şeir və mədhiyyə nümunələri" işini yerinə yetirib. İş "Xəridətul-Qəsr və Cəridətul-Əsr" ("Qəsrin İncisi və Əsrin Kitabəsi") əsərinin əlyazmadan oxunması və tekstoloji tərcüməsindən ibarətdir. XII əsrə aid əlyazmanın müəllifi olan İmadəddin İsfahani bu kitabda dövrünün seçilmiş şair və ədiblərinin həyat və yaradıcılığına geniş yer verib. Burada dini, əxlaqi, siyasi, tarixi və s. mövzularda şeirlərə rast gəlmək mümkündür. Əsər təzkirə janrında yazılıb və Əcəm diyarında yazıb yaratmış yetmişə yaxın şair və ədibin adları kitaba daxil edilib.

Aparıcı elmi işçi, f.ü.f.d. Teymur Sadıqovun 2019-2020-ci illərdə apardığı "Ərəb və ibri dillərinin müqayisəli qrammatikası (morfologiya əsasında)" tədqiqat işi ərəb və ibri dillərinin morfoloji nöqteyi-nəzərindən müqayisəli qrammatikasının təhlilinə həsr edilib. Burada ərəb və ibri dillərinin morfologiyasına nəzəri cəhətdən yanaşma ilə bərabər, həm də nümunələrlə birlikdə müqayisəli şəkildə təhlilinə də yer ayrılıb.

Elmi işçi, f.ü.f.d. Aygün Yusubova 2020-ci ildə "Nizami yaradıcılığının klassik türk ədəbiyyatına təsiri (Divan şairləri Fəxri, Hamidizadə Cəlili və Əhməd Rıdvanın yaradıcılığı əsasında)" mövzusu üzərində çalışıb. Tədqiqat işində klassik türk şeirində Nizami ənənəsini davam etdirən görkəmli söz sənətkarları Fəxri (XIV əsr), Hamizadə Cəlili (XV əsr) və Əhməd Rıdvanın (XV əsr) yaradıcılığı tədqiq olunub, Nizaminin "Xosrov və Şirin"i ilə müqayisələr aparılıb.

Kiçik elmi işçi Elman Novruzov 2019-2020-ci illərdə "Xacə Qiyasəddin Xandəmirin "Tarixi-Həbibəs-siyər" əsəri təzkirə kimi, II cild" işini icra edib. Xacə Qiyasəddin Xandəmirin "Tarixi-Həbibəs-siyər" əsəri monqol dövründən sonrakı dövrə qədər, Mirxondın "Rövzətüssəfa" əsəri istisna olmaqla, fars dilində yazılmış ən dəyərli əsərlərdən biridir. E.Novruzov Xandəmirin yaradıcılığını, xüsusən, onun "Tarixi Həbibəs-siyər" əsərini təzkirə olaraq tədqiq edib, bəşər tarixinə, xüsusən də, Səfəvilər dövrünə aid hissələrə, eləcə də, bu dövrdə yaşamış yaradıcı şəxsiyyətlərlə bağlı məlumatlara diqqət yetirib, onların bəzi hissələrini tərcümə edib.

"Yaxın və Orta Şərq ölkələrində din və ictimai fikir. İslam amilinin Azərbaycanın ictimai-siyasi inkişafına təsiri" problemi üzrə "Qloballaşma dövründə Yaxın və Orta Şərq ölkələrində dinə münasibət, dinin rolu və ictimai fikir məsələləri" mövzusu çərçivəsində Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi, fəl.ü.f.d. Elvüsal Məmmədov 2020-ci ildə "Müsəlman rasional fikir tarixində əxlaq problemi" mövzusu üzərində çalışıb. Tədqiqatda əxlaq probleminin İslam fikri

tarixindəki yeri araşdırılıb. Bu baxımdan kəlamşünaslıq, sufilik və islam fəlsəfəsinin problemə baxışı öyrənilib. Müəllif kəlamşünaslığı əmələ gətirən mötəzililik, əşərilik və maturidiliyin dəyər problemi ilə əlaqəli ideyaları bir-biri ilə müqayisə edib, müsəlman filosoflarından Razi, Farabi, İbn Sina, İbn Miskəveyh və İbn Rüşdün əxlaqa dair mülahizələrinin təhlilini aparıb.

Aparıcı elmi işçi, fəl.ü.f.d. Leyla Məlikova 2019-2020-ci illərdə "Məhəmməd Əbduh – islam islahatçılığının banilərindən biri kimi" mövzusunda tədqiqat aparıb. Tədqiqat işində XIX əsrin sonu islam *nahda*sının görkəmli nümayəndəsi, məşhur misirli alim Məhəmməd Əbduhun (1849-1905) dini-maarifçilik fəaliyyəti təhlil edilib, onun irsinin bir çox aspektləri islam aləminin gələcək perspektivləri kontekstində nəzərdən keçirilib.

Kiçik elmi işçi Dürdanə Cəfərli 2019-2020-ci illərdə apardığı "İslamda ictihad məsələsi və elmə münasibətdə onun yeni təzahürləri" mövzusunda tədqiqat aparıb. Tədqiqatçı müasir dövrdə müsəlman dünyasının mühüm problemlərindən biri olan islamda ictihad məsələsi və onun yeni təzahürlərini elmi kontekstdə araşdırıb, bu anlayış haqda dünyada mövcud olan təsəvvürləri müxtəlif yanaşmalar prizmasından nəzərdən keçirib, həmçinin islamda ictihad məsələsini yeni kontekstdə əks etdirən müxtəlif konsepsiyaları və yeni yanaşmaları təhlil edib, problemin gələcək perspektivlərini araşdırıb.

Elmi işçi Elnur Mustafayevin 2020-ci ildə "Dünya dinlərində "məhdəviyyət" nəzəriyyəsi" mövzusunda apardığı tədqiqat işində bir çox dünya dinlərində olduğu kimi təbii fəlakətlər, kataklizmlər və müharibələr səbəbi ilə yaranmış siyasi, iqtisadi çətinliklər vaxtı insanın fitri olaraq xilaskar gözləməsi faktına əsaslanan mehdilik inancının, onun mənşəyi və onu doğuran səbəblər araşdırılıb. Tədqiqatda avropalı alimlərin və bu mövzuda tədqiqat aparmış dinşünasların xilaskarlıq inancının mənşəyi ilə bağlı elmi yanaşmaları müqayisəli şəkildə araşdırılıb. Bununla yanaşı mehdilik inancını doğuran psixoloji, psixo-sosial və siyasi səbəblər kimi nüanslar da tədqiq edilib.

"Şərq-Qərb sivilizasiyalararası münasibətləri və Azərbaycan" problemi üzrə "Qlobal proseslərin inkişaf dinamikası prizmasından Şərq-Qərb münasibətləri və yeni çağırışlar" mövzusu çərçivəsində Şərq-Qərb şöbəsinin böyük elmi işçisi, f.ü.f.d. Ceyhun Ağayev 2019-2020-ci illərdə "Dinlərarası dialoqun təbliği və təşviqi istiqamətində Azərbaycan təcrübəsinin Şərq-Qərb əlaqələri üçün əhəmiyyəti" işini icra edib. Tədqiqat işində müasir dünyada baş verən qloballaşma prosesi, müxtəlif milli, etnik, dini xüsusiyyətlərə, tarixi təcrübəyə əsaslanan bir çox sabit mədəni sistemlərin mövcudluğu araşdırılıb. Dinlərarası dialoqun tarixi keçmişi, mahiyyəti və müasir dövrdə vacib olmasının obyektiv səbəbləri tədqiq edilib. Dinlərarası dialoq sahəsində Azərbaycanın mövcud təcrübəsi nəzərdən keçirilib. İşğal olunmuş ərazilərində dini abidələrin ermənilər tərəfindən dağıdılmasına baxmayaraq, Azərbaycanda xristian, iudaizm və digər dinlərə olan tolerant münasibət araşdırılıb.

Aparıcı elmi işçi Mahir Həmidov 2017-2020-ci illərdə İbn "Xəldunun "Müqəddimə" əsərinin tərcüməsi və orta əsr Avropa mədəniyyətinə təsiri baxımından şərhi" işini icra edib. XIV əsrin görkəmli tarixçisi, filosofu və dövlət xadimi İbn Xəldunun məşhur "Müqəddimə" əsəri onun yeddi cilddən ibarət "Kitabul-İbər" əsərinə giriş kimi yazılmışdır. Tərcümə edilən fəsil "Müqəddimə" əsərinin "Tarix elminin fəziləti, tarixi üsulların tədqiqi, tarixçilərin düşdükləri xətalara, illüziyalara işarə edilməsi və bu səbəblərdən bir qisminin qeyd edilməsi" adlanır. Adından da məlum olduğu kimi, bu fəsildə müəllifin tarix elmi barədə mülahizələri, fəlsəfi fikirləri yer alıb. Fəsildə, həmçinin İbn Xəldunun digər tarixçilərin yol verdikləri bir sıra səciyyəvi səhvlər və həqiqətə uyğun olmayan təsəvvürlərə münasibəti də öz əksini tapıb.

Kiçik elmi işçi Xuraman Abbasova 2020-ci ildə "Tabeli və tabesiz mürəkkəb cümlələrin Azərbaycan və ibri dillərində tədqiqi tarixi" mövzusunda araşdırma aparıb. Tədqiqatda Azərbaycan dilində mürəkkəb cümlənin və onun növlərinin dil xüsusiyyətləri araşdırılıb, ibri dilindəki mürəkkəb cümlələr təhlil olunmuş və Azərbaycan dili ilə əsas müqayisəli xüsusiyyətləri müəyyən edilib. Azərbaycanda, İsraildə və xaricdə tabeli və tabesiz mürəkkəb cümlələr mövzusunda aparılmış tədqiqatlar barədə müvafiq məlumatlar verilib, ətraflı şəkildə təhlil aparılıb.